Müşavirəni Misir Mərdanov açaraq qarşıda duran bir sıra məsələləri iştirakçıların diqqətinə çatdırıb. Nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" Sərəncamına müvafiq olaraq Təhsil Nazirliyinin üzərinə düşən vəzifələri xüsusi qeyd edib. Eyni zamanda bununla əlaqədar olaraq nazirliyin müvafiq struktur bölmə rəhbərlərindən ibarət Təşkilat Komitəsinin yaradıldığını bildirib və komitənin üzvlərinə həmin Sərəncama əsasən görüləcək işlər barədə tapşırıqlar verib.

Sonra nazir cari ilin aprel və mayında keçirilməsi nəzərdə tutulan tədbirlərdən danışaraq iştirakçılara bununla əlaqədar öz tövsiyələrini bildirib.

Müşavirədə Misir Mərdanov müvafiq şəxslərə verdiyi tapşırıqların icra vəziyyəti ilə maraqlanıb, eləcə də orta məktəblərdə xarici dilin tədrisi, ali məktəblərin strukturunda dəyişikliklər aparılmasının labüdlüyü və həlli vacib olan bir sıra mühüm məsələlərə toxunub.